**Erməni vandalizminin bariz nümunəsi**

XX əsr tariximizin qanlı faciələrindən olan Xocalı soyqırımı insanların yaddaşında silinməz izlər qoymuşdur. Xatın, Xirosima, Naqasaki kimi insan fəlakətləri törədilmiş ünvanlar sırasına 26 fevral 1992-ci ildə Dağlıq Qarabağda erməni quldur birləşmələri tərəfindən həyata keçirilmiş Xocalı soyqırımı da əlavə olunmuşdur.

Fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmş sovet ordusuna məxsus 366-cı alayın əsgər və zabitləri ilə birlikdə 7 min nəfərədək əhalisi olan Xocalı şəhərini yerlə-yeksan etmişlər. Ermənilər dinc əhalini, xüsusilə uşaqları, qadınları, qocaları ağılasığmaz vəhşiliklə öldürmüşlər. Qədim tarixi abidələri, ictimai binaları, xəstəxana və poliklinikaları, məktəbləri, fərdi mülkləri, dövlət idarələrini yandırıb dağıtmışlar.

Erməni birləşmələrinin vəhşiliyi nəticəsində həmin günlərdə 613 nəfər öldürülüb, 1275 nəfər dinc sakin girov götürülüb. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Faciə nəticəsində 1000 nəfərdən artıq Xocalı sakini müxtəlif dərəcəli güllə yarası alaraq şikəst olub. Onların 76 nəfəri yetkinlik yaşına çatmayanlardır. Qətlə yetirilənlərin 106 nəfəri qadın, 83 nəfəri azyaşlı uşaq, 70 nəfəri isə ömrünün qürub çağını yaşayan qocalar olub. Şəhidlərin 56 nəfəri diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları və başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların bədəni süngü ilə deşik-deşik edilmişdir. Erməni vandalizminin iç üzünü açan bu təcavüz nəticəsində altı ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Bu cinayətləri törətmiş erməni quldurlarından 30 nəfərdən çoxunun adı Azərbaycanın istintaq orqanlarına məlumdur. Həmin cinayətkarların çoxu işğal edilmiş Dağlıq Qarabag bölgəsində Ermənistan Respublikasının yaratdığı oyuncaq qurumda, eləcə də Ermənistanın özündə müxtəlif dövlət vəzifələrində çalışır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev üzünü bütün dünya dövlətlərinə, dünya azərbaycanlılarına və tərəqqipərvər insanlara tutaraq demişdir: "1992-ci il fevralın 26-da qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən vəhşicəsinə dağıdıldı, onun müdafiəçilərinə və sakinlərinə amansız divan tutuldu. Yüzlərlə dinc sakin görünməmiş işgəncələrlə öldürüldü, uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi, onların meyitləri təhqir olundu. XX əsrin sonunda dunyanın gözu qarşısında baş vermiş belə kütləvi qırgın hadisəsi öz amansızlıgına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi.

Xocalı qırğınını törətməklə erməni millətçiləri hiyləgər siyasi və taktiki məqsədlər güdürdülər. Onlar bununla xalqımızın mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın işğalı faktı ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin duşmənin niyyəti baş tutmadı, xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə yüksək iradə və qəhrəmanlıq nümunəsi göstərdi".

Xocalı soyqırımı ermənilərin XX əsrin 90-cı illərinin əvvəllərində Daglıq Qarabağın Kərkicahan, Meşəli, Quşçular, Qaradaglı kəndlərində törətdikləri kütləvi qırğınların, Bakıda və digər şəhərlərimizdə həyata keçirdikləri terror aksiyalarının davamı idi. Məqsəd isə 150 il bundan əvvəl qonşu İrandan Daglıq Qarabağ ərazisinə köçürülmüş ermənilərin rus şovinistlərinin dəstəyi ilə tarixi Azərbaycan torpaqlarında "Böyük Ermənistan" yaratmaq xəyallarını reallığa çevirməkdir. Qonşu superdövlətin əlində alətə çevrilən Ermənistanda yaşayan insanların çoxu artıq anlayır ki, bu, doğrudan da, xam xəyaldır, bütün bu qırğınlar, onları bu "oyun"a salan superdövlətin başqa məqsədlərə çatması üçün vasitədir.

Azərbaycan Prezidentinin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində ermənilərin bu xülyası puç olmaqdadır. Ölkəmizin iqtisadi qüdrəti artdıqca, ordu quruculuğu möhkəmləndikcə bu daha aydın hiss olunur. Bunun nəticəsində, hər il olduğu kimi, yenə də bu günlər dünyanın bir çox ölkələrində Xocalı şəhidləri ehtiramla yad edilir, faciə qurbanlarının ruhlarına dualar oxunur, Azərbaycanın haqq işi dəstəklənir, ermənilərin işğalçılıq siyasəti pislənilir. Ölkə Prezidentinin dediyi kimi, müstəqill, güclü və demokratik Azərbaycan dövlətinin mövcudluğu və getdikcə inkişaf etməsi Xocalı şəhidlərinin ruhuna təsəlli ola bilər. Bu

istiqamətdə həyata keçirilən tədbirlər, ümidlərimiz və istəklərimiz bizə tam əminlik verir ki, gec-tez cinayətkar ermənilər öz cəzalarına çatacaqlar, dədə-baba yurdlarımız işğaldan azad olacaqdır.

**Rəhman Salmanlı**

**Azərbaycan.-2009.-24 fevral.-S.6.**